# "*Orta Dəhliz boyunca:* geopolitika, təhlükəsizlik və iqtisadiyyat" konfransının iştirakçıları Ağdama səfər ediblər
















Noyabrın 26-da "Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfrans iştirakçıları Ağdama səfər ediblər.

AZƏRTAC xəbər verir ki, ABŞ, Belçika, Bolqarıstan, Böyük Britaniya, Fransa, İsrail, İsveçrə, İtaliya, Gürcüstan, Kanada, Misir, Pakistan, Polşa, Rumıniya, Rusiya və Türkiyənin aparıcı beyin mərkəzlərinin rəhbərləri və nümayəndələri şəhərdə işğal zamanı törədilmiş dağıntıları yerində müşahidə ediblər. Onlara məhv edilmiş mədəni abidələrin tarixi, həmçinin azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və quruculuq işləri, eləcə də infrastruktur layihələrinə dair ətraflı məlumat verilib. Daha sonra qonaqların Şahbulaq qalası, Cümə məscidi, Dram teatrı, Şəhidlər xiyabanı və Çörək zavoduna ziyarəti təşkil edilib.

Azərbaycan.- 2022.- 27 noyabr.- S.5.